1_Layout 1 27.08.2026 11:27 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 16 (728)

31 avqust 2026-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Müttəfiqliyin yeni zirvəsi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

## MÜTTƏFİQLİYİN YENİ ZİRVƏSİ

### Əbədi dostluq haqqında müqavilə iki dövlətin geosiyasi, iqtisadi və təhlükəsizlik baxımından bir-birinə nə qədər sarsılmaz tellərlə bağlandığını göstərir



23 avqustda Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri iki qardaş ölkə arasında tarixi münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoydu. Səfər çərçivəsində dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" sadəcə formal diplomatik sənəd deyil, iki dövlətin geosiyasi, iqtisadi və təhlükəsizlik baxımından bir-birinə nə qədər sarsılmaz tellərlə bağlandığının bariz sübutudur.

**Sarsılmaz həmrəylik modelinin hüquqi təməli**

Son illərdə Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında cərəyan edən sürətli geostrateji proseslər, xüsusilə Orta dəhlizin strateji əhəmiyyətinin artması və Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində inteqrasiya meyillərinin güclənməsi Bakı ilə Daşkənd arasında münasibətlərin dərinləşməsini zərurətə çevirib. Son 4-5 il ərzində dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivləşməsi, aparılan yüksəksəviyyəli danışıqlar və iqtisadi-ticari əlaqələrin dinamik artımı strateji tərəfdaşlıq modelinin artıq müttəfiqlik və əbədi dostluq səviyyəsinə yüksəlməsini təmin etdi. Bu baxımdan, imzalanan müqavilə iki ölkənin ortaq soy-kökə, dil və mədəniyyət yaxınlığına söykənən tarixi qardaşlıq bağlarını müasir beynəlxalq hüquq müstəvisində ən ali, dəyişməz və institutlaşmış formada təsbit edir. Bu, yalnız cari siyasi vəziyyətin tələbi deyil, eyni zamanda gələcək nəsillərə ötürüləcək davamlı və sarsılmaz həmrəylik modelinin hüquqi təməlidir.

Sənəddə göstərilir ki, iki dövlət beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərini və normalarını rəhbər tutaraq, münasibətlərində əbədi dostluğa, qarşılıqlı etimada, strateji tərəfdaşlığa və müttəfiqliyə əsaslanır, öz milli reallıqlarına uyğun inkişaf yollarının və modellərinin seçimində bir-birini dəstəkləyirlər. Onlar həmçinin digər tərəfin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran hər hansı bloklarda və ya ittifaqlarda iştirak etməməyi, öz ərazilərinin üçüncü ölkələr tərəfindən digər tərəfin dövlət suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vurmaq məqsədilə istifadə edilməsinə, eləcə də öz ərazilərində digər tərəfin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran təşkilatların və qrupların yaradılmasına və fəaliyyətinə yol verməməyi öhdələrinə götürürlər.

Bu şərtlər iki ölkənin təhlükəsizlik çətirinin birgə formalaşdırıldığını göstərməklə yanaşı, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının təhlükəsizlik arxitekturasında yeni sabitlik mərkəzinin yarandığını nümayiş etdirir.

Müqavilə həm də genişmiqyaslı iqtisadi inteqrasiyanı xarakterizə edir. Sənəddə əks olunan prioritetlər göstərir ki, Bakı və Daşkənd artıq ticarət əlaqələrini sadəcə mal mübadiləsi çərçivəsində görmür, daha dərin və dayanıqlı tərəfdaşlıq modeli formalaşdırır. İki ölkə bərabərlik və qarşılıqlı faydalılıq prinsipləri əsasında ticarət-iqtisadi və investisiya əməkdaşlığını inkişaf etdirir, energetika, nəqliyyat və logistika, rəqəmsal inkişaf, kənd təsərrüfatı, "yaşıl" və rəqəmsal iqtisadiyyat, elektron ticarət, informasiya-kommunikasiya və kosmik texnologiyalar, habelə qarşılıqlı maraq doğuran digər istiqamətlərdə birgə layihələrin həyata keçirilməsinə kömək göstərirlər.

Bütün bunlar tərəflərin iqtisadiyyatlarını müasir geosiyasi reallıqlara uyğun olaraq diversifikasiya etmək niyyətindən xəbər verir. Birgə investisiya layihələri regionda yeni iş yerlərinin və istehsal zəncirlərinin yaranmasını təşviq edir.

İki ölkə nəqliyyat sistemlərinin qarşılıqlı inteqrasiyasına xüsusi diqqət ayırır. Sənəddə əks olunub ki, yüklərin və sərnişinlərin əlverişli və qarşılıqlı faydalı daşınmasını təmin etməyə, eləcə də nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına yönəlmiş qarşılıqlı əlaqəli nəqliyyat sisteminin daha da möhkəmləndirilməsi üçün zəruri şərait yaradırlar.

**Ortaq kimlik və dəyərlər ətrafında sıx birləşmə**

İki ölkə xalqlarının mənəvi, təhsil və mədəni yaxınlığının qorunub saxlanmasına hərtərəfli kömək göstərir, elm, təhsil, tibb, mədəniyyət, mədəni irs, gənclər, turizm və idman, habelə qarşılıqlı maraq doğuran digər istiqamətlərdə mübadilə və əməkdaşlığı inkişaf etdirirlər. Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisinə, elmi və təhsil müəssisələri arasında birbaşa əməkdaşlığın inkişaf etdirilməsinə və birgə layihələrin həyata keçirilməsinə şərait yaradırlar. Regionlararası əməkdaşlığın inkişafını dəstəkləyir, şəhərlər və regionlar arasında tərəfdaşlıq əlaqələrinin qurulmasını təşviq edirlər. Göstərilənlər gələcək nəsillərin ortaq kimlik və dəyərlər ətrafında sıx birləşməsini hədəfləyir.

Daşkənddə keçirilən mərasimdə dövlət başçılarının bir-birini ali ordenlərlə (Prezident İlham Əliyevin "Dostluq", Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin isə "Heydər Əliyev"ordeni ilə) təltif etmələri siyasi iradənin və şəxsi etimadın ən yüksək göstəricisidir.

Daşkənddə təltifolunma mərasimində Prezident İlham Əliyev son 4-5 ildə həyata keçirilən intensiv səfər dinamikasına diqqət çəkərək, əldə olunan bu yüksək diplomatik səviyyənin əsrə söykənən ortaq köklər, mədəniyyət və dil yaxınlığı üzərində ucaldığını diqqətə çatdırdı: "...bu statistikanın arxasında, ilk növbədə, ortaq köklərimiz, xalqlarımızın yaxınlığı, mədəniyyətlərimizin, dillərimizin və adət-ənənələrimizin yaxınlığı, bir-birimizə qarşı səmimi münasibət, özbək və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluq dayanır. Bu, həmin təməldir - əlbəttə, qardaşlığımızın bu binasını necə möhkəmləndirdiyimiz, hansı layihələri həyata keçirdiyimiz, qarşılıqlı fəaliyyətimizə və ölkələrimizin inkişafına yönəlmiş müxtəlif təşəbbüslərdə necə birgə iştirak etdiyimiz".

Şavkat Mirziyoyevin bəyanatında "Bu gün biz Əbədi dostluq haqqında müqavilə imzaladıq. Təsəvvür edirsinizmi, regionlar, biznes, hökumətlər və parlamentlərarası əlaqələr artıq nə qədər yüksək səviyyəyə çatıb. Bu, sadəcə bir sənəd deyil, qarşılıqlı əlaqələri dərinləşdirmək, əməkdaşlıq imkanlarını genişləndirmək və ümumi gələcək qurmaq istiqamətində birgə istəyimizin əksidir", - deməsi bu tərəfdaşlığın praqmatik nəticələrə söykəndiyini bir daha təsdiq edir.

Əbədi dostluq haqqında müqavilə Azərbaycan və Özbəkistanın həm ikitərəfli formatda, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində mövqelərini keyfiyyətcə yeni müstəviyə qaldırır. Sənəd strateji müttəfiqlikdən əbədi dostluq mərhələsinə keçidi rəsmiləşdirərək, təkcə cari dövrün geopolitik ehtiyaclarını ödəmir, eyni zamanda gələcək nəsillər üçün sarsılmaz qardaşlıq və həmrəylik irsi formalaşdırır.

## Orta əsr Azərbaycan memarlığının qiymətli yadigarı - Şirvanşahlar sarayı

Hər şəhərin öz siması olduğu kimi, həm də öz yaddaşı var. Bu yaddaş bəzən bir qala divarında, bəzən qədim məscidin daş kitabəsində, bəzən də əsrlər boyu küləyə, yağışa, zəlzələlərə sinə gərmiş bir sarayın divarlarında yaşayır. Azərbaycan memarlığının bu nadir, tarixi nümunələrini inşa edənlər onun xarici görünüşünün cəlbediciliyini, gözəlliyini düşünməklə yanaşı, təbii relyefə uyğunluğunu, təbiətin şıltaqlıqlarına dözümlülüyünü də nəzərə alıblar. Odur ki, tarixin keşməkeşli zamanlarının onları məhv etməyə gücü çatmayıb.

2026-cı ilin Prezident İlham Əliyevin sərəncamı ilə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizin nadir memarlıq incilərinə yalnız bu günün gözü ilə deyil, keçmişin dəyərli nişanələri kimi yenidən baxmaq imkanı verib. Bu qərar xalqımızın tarixinin, mədəniyyətinin zənginliyini əks etdirən milli-mədəni irsimizin öyrənilməsinin, qorunmasının, tanıdılmasının vacibliyini bir daha diqqətə gətirib.

Orta əsr Azərbaycan memarlığının ən qiymətli yadigarlarından biri olan Şirvanşahlar sarayı Bakının tarixini, dövlətçilik ənənələrini və şəhərsalma mədəniyyətini bu günə çatdıran, tayı-bərabəri olmayan memarlıq ansamblıdır. Saray Şirvanşahlar dövlətinin hökmdarlarının Bakıdakı iqamətgahı olub. Kompleksin formalaşması uzun tarixi dövrü əhatə edir və onun ayrı-ayrı tikililəri əsasən XIV-XVI əsrlər arasında inşa edilib. Kompleksə saray binası ilə yanaşı, divanxana, Şirvanşahlar türbəsi, Şah məscidi, Seyid Yəhya Bakuvinin türbəsi, saray hamamı, ovdan, Murad darvazası və Keyqubad məscidinin qalıqları daxildir.

Sarayın inşa olunması Şirvan dövlətinin tarixində baş verən mühüm siyasi hadisələrlə sıx bağlıdır. 1192-ci ildə Şamaxıda baş vermiş güclü zəlzələdən sonra Şirvanşah I Axsitanın iqamətgahını Bakıya köçürməsi şəhərin siyasi əhəmiyyətinin artmasına səbəb olub. XV əsrdə Bakının iqtisadi və siyasi mövqeyinin daha da güclənməsi ilə Şirvanşah I Xəlilullahın hakimiyyəti dövründə saray kompleksinin əsas hissələrinin tikintisi geniş vüsət alıb.

Kompleksin ayrı-ayrı binaları müxtəlif dövrlərdə inşa edilsə də, onların arasında güclü memarlıq və kompozisiya bütövlüyü mövcuddur. Şirvan-Abşeron memarlıq məktəbinin ənənələrinə əsaslanan ustalar yerli əhəngdaşından istifadə etməklə monumental və zərif tikililər yaradıblar.

Saray binası mürəkkəb memarlıq quruluşuna malikdir. Tarixi məlumatlara görə, binada ilkin olaraq 52 otaq olub. Onlar dar və dolama pilləkənlərlə bir-biri ilə əlaqələndirilib. İkinci mərtəbədə yerləşən səkkizbucaqlı qəbul zalı sarayın ən diqqətçəkən hissələrindən biridir. Zalların və otaqların yerləşmə xüsusiyyətləri burada həm dövlət qəbullarının keçirildiyini, həm də hökmdar ailəsinin yaşadığını göstərir.

Kompleksin mühüm memarlıq nümunələrindən biri divanxanadır. Bu tikilinin funksiyası barədə müxtəlif fikirlər mövcuddur. Onun dövlət şurası, qəbul və ya məhkəmə məqsədləri üçün istifadə edildiyi ehtimal olunur. Divanxananın memarlıq həlli Şirvan-Abşeron məktəbinin yüksək bədii və texniki imkanlarını nümayiş etdirir.



Şirvanşahlar türbəsi isə kompleksin həm tarixi, həm də dini-memorial baxımdan xüsusi əhəmiyyət daşıyan hissəsidir. Türbə Şirvanşah I Xəlilullahın hakimiyyəti dövründə - 1435-1436-cı illərdə inşa edilib. Kitabədə tikilinin I Xəlilullah tərəfindən anası və oğlu üçün ucaldığı bildirilib. Buranın zəngin portal bəzəkləri, daş işləmələri və günbəzli quruluşu Orta əsr Azərbaycan memarlığının yüksək səviyyəsini nümayiş etdirir.

Kompleksin digər mühüm abidəsi Şah məscididir. Məscidin minarəsi üzərindəki kitabə onun 1441-1442-ci illərdə Şirvanşah I Xəlilullahın əmri ilə inşa edildiyini göstərir. Məscidin ibadət zalı günbəzlə örtülüb, memarlıq quruluşunda həm estetik, həm də konstruktiv həllərdən istifadə edilib. Məscid və türbə arasında olan memarlıq əlaqəsi kompleksin ümumi kompozisiyasını daha da tamamlayır.

Sarayın cənubunda yerləşən Seyid Yəhya Bakuvinin türbəsi də xüsusi maraq doğurur. XV əsrin ikinci yarısında inşa edildiyi ehtimal olunan bu səkkizbucaqlı tikili saray alimi, filosof və mütəfəkkir Seyid Yəhya Bakuvinin adı ilə bağlıdır. Onun elm, fəlsəfə, tibb, riyaziyyat və astrologiya sahələrində fəaliyyəti Azərbaycan elmi-mədəni tarixində mühüm iz qoyub. Seyid Yəhya Bakuvi Dərviş türbəsi kimi də tanınır.

Şirvanşahlar sarayının tarixində müxtəlif siyasi hadisələrin izləri də qalıb. XVI əsrin sonlarında Osmanlıların Bakı üzərində hakimiyyəti dövründə sarayın şərq hissəsində Murad darvazası inşa edilib. Darvazanın üzərindəki kitabə onun 1585-1586-cı illərdə yerli əyan Rəcəb babanın əmri ilə tikildiyini göstərir. Bu abidə saray kompleksinin müxtəlif siyasi və mədəni dövrlərin memarlıq izlərini özündə birləşdirir.

Sonrakı əsrlərdə saray müxtəlif dəyişikliklərə və dağıntılara məruz qalıb. XVIII əsrdə Bakının bombardmana tutulması zamanı sarayın cənub-şərq fasadı zədələnib. XIX əsrdə isə Rusiya imperiyasının Hərbi Nazirliyinin istifadəsinə verilən kompleksdə uyğunlaşdırma məqsədilə bir sıra dəyişikliklər aparılıb.

XX əsrin əvvəllərindən etibarən Şirvanşahlar sarayının tarixi-memarlıq abidəsi kimi qorunması istiqamətində məqsədyönlü tədbirlər görülməyə başlanıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə sarayın ölçmə çertyojlarının hazırlanması onun elmi əsaslarla öyrənilməsi baxımından mühüm addım olub. 1920-ci ildən sonra saray ərazisində təmizləmə, arxeoloji araşdırma və bərpa işləri həyata keçirilib.

Ötən əsrin 30-cu illərində aparılan bərpa işləri, eləcə də 1937-1938-ci illərdə həyata keçirilən arxeoloji qazıntılar kompleksin tarixinin öyrənilməsinə böyük töhfə verib. Qazıntılar zamanı müxtəlif dövrlərə aid keramika nümunələri, sikkələr və digər arxeoloji materiallar aşkar edilib.

1964-cü ildə "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarix-Memarlıq qoruq-muzeyinə çevriləndən sonra burada müxtəlif bərpa və konservasiya tədbirləri həyata keçirilib, 1990-cı illərdən etibarən isə kompleksin restavrasiyasına yenidən xüsusi diqqət göstərilib.

Şirvanşahlar sarayının əhəmiyyəti 2000-ci ildə unikal memarlıq və mədəniyyət kompleksinin - Bakının qala divarları ilə əhatə edilmiş tarixi hissəsinin (İçərişəhər, Qız qalası və Şirvanşahlar Sarayı Kompleksinin) UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi ilə bir daha təsdiq olunub. Bununla saray yalnız Azərbaycanın deyil, bəşəri mədəni irsin mühüm nümunələrindən biri kimi beynəlxalq səviyyədə tanınıb. 2001-ci ildə isə Nazirlər Kabinetinin qərarı ilə Şirvanşahlar sarayı dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb.

Bu gün Şirvanşahlar sarayı Azərbaycanın dövlətçilik və memarlıq tarixinin canlı salnaməsi kimi öz əhəmiyyətini qoruyur. Onun daş divarlarında Orta əsr Azərbaycan memarlarının sənəti, əsrlərin tarixi yaşayır. Kompleksin hər bir tikilisi - saray binası, divanxana, Şah məscidi, türbə, hamam və digər memarlıq nümunələri Azərbaycanın zəngin keçmişini əks etdirir.

**"Azərbaycan" qəzetinin materialları əsasında hazırlanıb.**

2_Layout 1 27.08.2026 11:28 Page 1



## NÜMUNƏVİ XİDMƏTİ VƏ PEŞƏKARLIĞI İLƏ FƏRQLƏNƏN TABOR

17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taboru həm müasir infrastrukturu, həm də xidməti fəaliyyəti ilə fərqlənir. Ayrı yerləşən patrul taboru yüksək döyüş hazırlığı, o cümlədən nümunəvi hərbi intizam nümayiş etdirərək üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Bütün bunlar şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı barədə müsbət təsəvvür yaradır.

Ayrı yerləşən patrul taborunun komandiri mayor Ülvi Hüseynli əldə olunan nailiyyətlərin, ilk növbədə, hərbi qulluqçuların öz vəzifə borclarına məsuliyyətlə yanaşmalarından irəli gəldiyini bildirdi. Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması istiqamətində görülən işlər haqqında məlumat verən zabit söylədi ki, hərbi qulluqçuların fiziki hazırlıqları diqqət mərkəzində saxlanılır. Bütün idman tədbirləri vaxtında, müvafiq təlimata uyğun keçirilir, bu da müsbət nəticələrin əldə olunmasına imkan verir.





Mayor Ü.Hüseynli şəxsi heyətin atəş hazırlığının da mühüm əhəmiyyət kəsb etdiyini nəzərimizə çatdırdı. Habelə şəxsi heyət arasında nizam-intizamı möhkəmləndirmək, gündəlik fəaliyyətdə qanunçuluğa riayət olunmasını, təhlükəsizlik qaydalarına əməl edilməsini tələb etmək də xidmətin əsasıdır.

O, görülən işlərdə ayrı yerləşən patrul taboru komandirinin müavini-qərargah rəisi kapitan Qaçay Xəlilov, ayrı yerləşən patrul taboru komandirinin tərbiyə işləri üzrə müavini mayor Tural Qasımov, ayrı yerləşən patrul taboru komandirinin maddi-texniki təminat üzrə müavini mayor Rəşad Zahidovun xidmətlərini müsbət qiymətləndirdi.

Taborun komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılan istiqamətlərdən biri də bölmələrin təyinatları üzrə vəzifələrini yerinə yetirmələri, o cümlədən şəxsi heyətin gündəlik xidməti-döyüş fəaliyyətidir.



Kapitan Q.Xəlilov qeyd etdi ki, bölmə komandirləri məşğələlərin tam və keyfiyyətlə keçirilməsi məqsədilə tədris prosesini hər zaman ciddi nəzarətdə saxlayırlar.

Mayor T.Qasımov taborda söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı kimi çoxşaxəli tərbiyə işi tədbirlərinin şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə və hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verdiyini vurğuladı.

Komandir müavini əlavə etdi ki, şəxsi heyətin hərbi nizamnamələrin tələblərinə ciddi riayət etməsi taborda yüksək intizamın, sağlam mənəvi mühitin yaranmasını şərtləndirir. Belə bir mühitdə sözsüz ki, sağlam düşüncəli, hərtərəfli hazırlığa malik hərbi qulluqçular formalaşır.

Mayor T.Qasımov hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran ayrı yerləşən patrul taborunun bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi. Nümunəvi xidməti ilə seçilən hərbi qulluqçulardan kapitan Heydər Rəsulzadə, gizir Şamxal Nəsibov, baş əsgər Elşən Məmmədov, əsgərlər Emil Nadirov və Nicat İsmayılovun adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

## ŞƏXSİ HEYƏT TAPŞIRILMIŞ OBYEKTLƏRİN MÜHAFİZƏSİNİ QÜSURSUZ TƏMİN EDİR

16073 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür.



Hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsini təmin edən bölüyün şəxsi heyəti döyüş xidmətinin yerinə yetirilməsi zamanı peşəkarlıq nümayiş etdirir. Bu işdə komendant bölüyünün komandiri baş leytenant Fərid Mirzəzadənin üzərinə böyük məsuliyyət düşür.

Baş leytenant F.Mirzəzadə bildirdi ki, hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən bölüyün xidmətə cəlb olunan hərbi qulluqçularının sağlamlıqları, onların mənəvi-psixoloji durumları xüsusilə nəzarətdə saxlanılır. Həmçinin ayıq-sayıqlıq, möhkəm iradə və digər lazımi keyfiyyətlər keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılanır. Bu cür məşğələlər həm də şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verir.

Zabit onu da əlavə etdi ki, xidmətdən əvvəl müvafiq plana əsasən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: “Ümumiyyətlə, mütəmadi olaraq şəxsi heyətlə fərdi qaydada söhbətlər aparılır, mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu baş leytenant Vüsal Məmmədov da xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbətlər aparır. Postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunmasına, asudə vaxtın səmərəli təşkilinə - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılmasına da diqqət yetirilir”.





Bölük komandiri təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyətin postda xidmət apararkən daha ayıq-sayıq, çevik olduğunu, tapşırılmış obyektlərin mühafizəsini qüsursuz yerinə yetirdiyini də qeyd etdi. Komendant bölüyünün bacarıqlı, nizam-intizamlı hərbi qulluqçularından baş çavuş İzzət Şahbazov, əsgərlər Kamil Məmmədli və Elsevər Bəkirovun adlarını çəkdi.

Baş leytenant F.Mirzəzadə onu da əlavə etdi ki, 2026-cı ilin I yarımilinin yekunlarına görə komendant bölüyü hərbi hissənin bölmələri arasında 1-ci yerə layiq görülüb: “Bu uğur bütün şəxsi heyətin əzmkarlığının nəticəsi kimi hər birimizi sevindirir və bizi daha böyük uğurlara həvəsləndirir”.

**kapitan Xədicə Hacızadə**

## XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİ MÜSBƏT QİYMƏTLƏNDİRİLƏN DƏSTƏ

Hərbi hissələrimizdə döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. 16077 saylı hərbi hissəyə ezamiyyətim zamanı mayor Xəqani Aydınovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsi ilə tanış oldum.





Hərbi hissə komandiri tərəfindən xidməti-döyüş fəaliyyəti müsbət qiymətləndirilən bölmə haqqında danışarkən dəstə komandiri bildirdi ki, döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır. Dəstəyə təhkim olunmuş döyüş texnikasının, sursatların və digər əmlakların vəziyyətinin daima diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də bu istiqamətdə əsas amillərdən biridir. Dəstənin döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına, daxili qayda-qanuna riayət edilməsinə cavabdehlik daşıyan komandir üzərilərinə düşən vəzifələrin icrasına hər zaman hazır olduqlarını nəzərimizə çatdırdı.



Şəxsi heyətin nəzəri biliyi və döyüş hazırlığının artırılması məqsədilə tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlərin keçirilməsində qrup və yarımqrup komandirlərinin biliklərinin hərbçilər tərəfindən dərindən qavranılması əsas götürülür. Bundan əlavə, hər həftənin cümə günü hərbi qulluqçuların peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi və eyni zamanda istənilən şəraitdə qarşıya çıxan döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə gecə təlimləri keçirilir.

Dəstə komandiri şəxsi heyətin bilik və praktiki vərdişlərini şəxsən yoxlayır, hərbi qulluqçuların düzgün yerləşdirilməsini, ciddi daxili qayda-qanunun olmasını, nizamnamələrin tələblərinə riayət edilməsini, silahların, xüsusi silahların, xüsusi vasitələrin, texnikanın qorunub saxlanılmasını və onlardan düzgün istifadə edilməsini nəzarətdə saxlayır.

Tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan mayor X.Aydınov bölmənin şəxsi heyəti ilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi: “Bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Əli Ağayevin əməyini xüsusilə vurğulamaq lazımdır. O, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə icra edir. Təbii ki, döyüş hazırlığından danışarkən mənəvi-psixoloji durumun qənaətbəxş olmasının vacibliyini hər birimiz bilirik. Eyni zamanda əmr və direktivlərin tələblərinə əsasən döyüş hazırlığının yüksəldilməsi üçün hərbi qulluqçuların keçirilən məşğələlərdə tam tərkibdə iştirakına və mövzuların dərindən mənimsənilməsinə nəzarət edir”.



Məşğələlərin plan-konspektlərinin hazırlanmasında və hərbi qulluqçuların tərbiyəsi işində xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandiri mayor Yaqub Abbasovun zəhmətini qeyd edən mayor X.Aydınov hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi bölməsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gələcəyinə əminliyini ifadə etdi.

Nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçulardan baş çavuşlar Tahir Mənsimov, Toğrul Əhmədov, kiçik çavuş Laçın Tağıyev, əsgərlər Əmrah Abışov, Yusif Həsənli və Həzrət Daşovun adlarını çəkdi.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 27.08.2026 15:15 Page 1



## ŞİRVAN ŞƏHƏRİNDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİ ZİYARƏT EDİLİB

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin rəğbət və ehtiram nümayiş etdirilir. Onların həyatı, mərdlik və qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir.




Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir.

Məlum olduğu kimi, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə sentyabr ayının 19-da başlayan və 24 saatadək davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoyub, özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini güc yolu ilə, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq tam bərpa edib.

Vətən müharibəsində olduğu kimi, antiterror tədbirləri zamanı da Daxili Qoşunların hərbi qulluqçuları rəşadət nümayiş etdiriblər, onlardan 12 nəfər şəhidlik zirvəsinə ucalıb. Həmin hərbi qulluqçulardan biri də 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri olmuş polkovnik-leytenant Rəşad Hüseynovdur.

25032 saylı hərbi hissəyə xidməti ezamiyyət zamanı bir qrup hərbi qulluqçu ilə şəhidin ailəsinə baş çəkdik. Görüşdən öncə Şirvan şəhərinin Şəhidlər xiyabanında şəhidin məzarını ziyarət etdik.

Qeyd edək ki, polkovnik-leytenant R.Hüseynov 1980-ci il martın 10-da Şirvan şəhərində doğulub. Rəhim Hüseynov və Ceyran Hüseynovanın vətənpərvər ruhda böyüdüb tərbiyə etdikləri Rəşadın özündən yaşca kiçik Anar və Rasim adlı qardaşları var. Şəhidin valideynləri məlumat verdilər ki, Rəşad orta təhsilini doğulub boya-başa çatdığı şəhərdə yerləşən tam orta məktəbdə alıb. 1998-2002-ci illərdə isə ali hərbi təhsilə yiyələnib.

2003-cü ilin iyun ayından Daxili Qoşunların 16075 saylı hərbi hissəsində həqiqi hərbi xidmətə başlayıb. 25033, 16073, 17074 və 17071 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə özünü savadlı və bacarıqlı zabit kimi göstərib. 2021-ci ilin iyul ayından 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri olub. Xidmət etdiyi müddət ərzində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, komandir, döyüş və ictimai-siyasi hazırlığında, qayda-qanunun və hərbi intizamın möhkəmləndirilməsində yüksək nəticələr əldə etdiyinə görə dəfələrlə mükafatlandırılıb.

Rəşadın valideynləri söhbət zamanı onun ömür yolu barədə xatirələrini bölüşdülər. Hələ yeniyetmə yaşlarından idmana, o cümlədən hərbçi peşəsinə böyük maraq göstərdiyini vurğuladılar. Şəhidin atası qeyd etdi ki, Rəşad uşaqlıqdan idmanın güləş növü ilə məşğul olub, iştirak etdiyi şəhər üzrə birincilik yarışlarında müxtəlif dərəcəli diplom və medallarla mükafatlandırılıb. Məktəbin müəllim-şagird kollektivi, qohum-əqrəba, həmçinin yaşadığı məhəllə sakinləri arasında tərbiyəli, böyük-kiçik yeri bilən və hər kəslə mehriban davranan gənc kimi tanınıb. Valideynləri, yaxınları Rəşadın hərbi xidmətdə qazandığı uğurları, qüsursuz xidməti ilə hər zaman fəxr ediblər.




Antiterror tədbirləri zamanı ağır yaralanan polkovnik-leytenant R.Hüseynov sentyabrın 21-də hərbi qospitalda şəhadət məqamına yüksəlib. Məlumat üçün onu da bildirək ki, ailə üzvlərinin yaşadıqları ünvanda şəhidin xatirə guşəsi düzəldilib.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamı ilə polkovnik-leytenant R.Hüseynov ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif olunub.

Şəhidin Rəşidə və Xədicə adlı iki qız övladı yadigar qalıb.

Ramin Ağayevin tərtibatı ilə çap olunan “Antiterror əməliyyatı” və Alik Rzayevin müəllifi olduğu “Şirvanın səsi”, “Şirvanın yüksək rütbəli yetirmələri” kitablarında şəhid haqqında məqalələr dərc olunub.

Hərbi qulluqçumuzun əziz xatirəsi onu sevənlərin qəlbində əbədi olaraq qalacaqdır.

**kapitan Xədicə Hacızadə**

## GƏNCƏDƏ YERLƏŞƏN NİZAMİ GƏNCƏVİ MƏQBƏRƏSİNƏ EKSKURSİYA TƏŞKİL OLUNUB




Şəxsi heyətin mənəvi tərbiyəsi, maarifləndirilməsi, dünyagörüşünün, mədəni-estetik səviyyəsinin və dövlətçilik təfəkkürünün düzgün formalaşdırılması, ictimai-siyasi biliklərinin artırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzey və sərgi mərkəzlərinə ekskursiyaları mühüm əhəmiyyət kəsb edir. Digər hərbi hissələrimizdə olduğu kimi, 17072 saylı hərbi hissədə də belə tədbirlər davamlı olaraq təşkil edilir. Hərbi hissənin komandanlığı hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkilini hər zaman nəzarətdə saxlayır.

Hərbi hissənin komendant bölüyünün komandiri kapitan Qanboy İbrahimovun rəhbərliyi və bölüyün xidmətdə fərqlənən nümunəvi, intizamlı hərbi qulluqçularının iştirakı ilə Gəncə şəhərində yerləşən Nizami Gəncəvi Muzeyinə və məqbərəsinə ekskursiya təşkil olunub.



Hərbi qulluqçuları Nizami Gəncəvi Muzeyinin filial müdiri Gülnarə İsmayılova qarşılayıb, muzey və məqbərə haqqında ətraflı məlumat verib. O bildirib ki, dahi Azərbaycan şair və mütəfəkkiri, şeyx Nizami 1141-ci ildə Gəncə şəhərində doğulub, 1209-cu ildə isə dünyasını dəyişib. Bəşəriyyət üçün dəyərli mənəvi irs qoymuş Nizaminin Gəncədə qəbri üzərində məqbərə inşa olunub. Bu məkan əsrlər boyu görkəmli ədib və mütəfəkkirlərin ziyarətgahına çevrilib.

1606-cı, 1752-ci, 1826-cı illərdə rus ordusu ilə Şıx düzündə aparılmış müharibələr nəticəsində məqbərə qismən dağıdılıb. 1922-ci ildə onun qəbri bərpa olunub.

Məqbərənin qarşısında dahi şairin 870 illik yubileyi münasibətilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Nizami Gəncəvi Muzeyi inşa edilib. 2014-cü ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə muzeyin açılış mərasimi keçirilib.

Dörd mərtəbədən ibarət olan muzeyin qarşısında dahi mütəfəkkirin abidəsi ucaldılıb. Binanın ümumi ərazisi 1968, ekspozisiya zalının ümumi sahəsi isə 493 kvadratmetrdir. Binada 12 otaq, 80 nəfərlik konfrans zalı və kafe mövcuddur.

Bələdçi söyləyib ki, muzeydə dahi şairin zəngin irsini əks etdirən 641 eksponat mövcuddur. Muzeyin ikinci mərtəbəsində Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpası, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncamları sərgilənir.

Nizami Gəncəvi Muzeyinə ekskursiyada iştirak edən hərbi qulluqçularımız xoş təəssüratlarla hərbi hissəyə qayıdıblar.

**kapitan Şahin Cəfərzadə**

*Qazilərimiz*

## ÖN CƏBHƏDƏ DÖYÜŞÇÜ ƏQİDƏSİNƏ SƏDAQƏT VƏ CƏSURLUQ ÖRNƏYİ

Azərbaycan xalqı müharibə sınağından keçərək bir çox əzab-əziyyətə fədakarcasına dözüb, doğma torpağı uğrunda qurbanlar verib, birlik və mübarizlik nümunəsi göstərib. Tarix boyu işğal nəticəsində itirilən ərazilər hərb yolu ilə geri alınıb. Heç bir düşmən başı əzilmədən özgə torpağından çıxmayıb. Məhz şanlı ordumuzun qəhrəmanlığı və “dəmir yumruq” zərbəsi sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Hərbi gücümüz qarşısında dayana bilməyən Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur qalıb.

Qürurverici haldır ki, təqvimdə Zəfər Günümüz var. Beynəlxalq ictimaiyyətin nəzərində qalib xalq kimi hörmət və nüfuzumuz daha da artıb. Hərbi qüdrətimiz regionda mühüm geosiyasi amilə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında qazanılan möhtəşəm hərbi qələbəyə Vətən müharibəsində iştirak edən hər bir qoşun növü öz layiqli töhfəsini verib. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti müharibə dövründə qarşısına qoyulan döyüş tapşırıqlarını şərəflə yerinə yetirib.

Vətən müharibəsi qazisi, istefada olan çavuş Babayev Orxan Səfər oğlu Daxili Qoşunların sabiq hərbi qulluqçusudur. O, 1989-cu il yanvarın 28-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. Səfər Babayev və Almas Babayevanın iki övladından biri, bacısı Güllərdən yaşca kiçikdir. Halal zəhməti ilə dolanan bir ailədə böyüyərək tərbiyə alıb. Atası dəmir yolunun keçid məntəqəsində, anası isə kənd məktəbində gözətçi işləyirlər.

Orxan Bayan kəndindəki şəhid Mikayıl Mustafayev adına tam orta məktəbi bitirib. Şagird ikən tarix, ədəbiyyat, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənləri ilə daha çox maraqlanıb. Məktəbli vaxtından əvvəlcə gələcəkdə təyyarə pilotu, sonra fikrini dəyişərək hərbçi olmağı arzulayıb. Çünki bu peşəyə xüsusi rəğbət bəsləyib.

Yeniyetmə yaşlarından idmana həvəslə yanaşıb, fiziki hazırlığını inkişaf etdirib, özünü zərərli vərdişlərdən uzaq saxlayıb. Həmçinin bədii yaradıcılıq istedadına malik Orxan həmin illərdən başlayaraq şeirlər yazıb, duyğularını misralarda ifadə edib.

2007-ci ilin yanvar ayında o, Daxili Qoşunların sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət edərək əsgəri borcunu vicdanla yerinə yetirib. 2008-ci ilin iyul ayında hərbi xidmətdən tərxis olunub.

2013-cü ilin yanvar ayında Orxan öz arzusu ilə Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilib. 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcı-sanitarı, atıcısı, atıcı-radiotelefonçusu, eləcə də snayper qrupunun atıcı-snayperi, sonra 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı və atıcı-sanitarı vəzifələrində xidmət keçərək komandanlığın etimadını doğruldub. Xidmət müddətində müxtəlif kurs və təlimlərə cəlb olunaraq peşə hazırlığını təkmilləşdirib. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığı ilə fərqlənib. Komandirləri və silahdaşları arasında hörmət qazanıb. Dəfələrlə mükafatlandırılıb.

2013-cü il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 95-ci ildönümü münasibətilə Bakıda keçirilən hərbi paradda Orxan iştirak edib.

Müdafiə nazirinin 21 iyun 2013-cü il tarixli əmri ilə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi” yubiley medalına layiq görülüb.

99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi əməliyyat qrupunun yarımqrup komandiri gizir Cabir Əliyev Vətən müharibəsi iştirakçısıdır. O qeyd etdi ki, Orxanla bu dəstədə birlikdə xidmət zamanı onu cəsarətli, qorxmaz, vətənpərvər, məsuliyyətli hərbi qulluqçu və etibarlı yoldaş kimi tanıyıb.

Vətən müharibəsi iştirakçısı, 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Yasin Qasımov məlumat verdi ki, Orxan onun tabeliyində xidmət edib. Sabiq hərbçini 2019-cu ilin oktyabr ayından tanıdığını söylədi. Xidmət zamanı xüsusi təyinatlının intizamı, etik davranışı, məşğələlərdə çalışqanlığı, təlimlərdə çevikliyi və məharəti ilə seçildiyini, qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəldiyini vurğuladı. Yarımqrup komandirinin sözlərinə görə, Orxan ictimai asayişin və təhlükəsizliyin qorunması, koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə xidmətə çıxaraq, bəzi xüsusi əməliyyatlarda iştirak edərək hər bir vəziyyətdə peşəkarlığını isbatlayıb. Müsahibim dedi ki, 2020-ci ilin iyul ayında Orxan qatıldığı xüsusi təyinatlı bölmələrin taktiki təlimlərini müvəffəqiyyətlə başa vurub.




Gizir C.Əliyev və baş çavuş Y.Qasımov Orxanın döyüş yolu barədə ətraflı danışdılar. Belə ki, o və silahdaşları Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Vətən müharibəsinin ilk günündən erməni işğalçılarına qarşı vuruşublar. 2020-ci il sentyabrın 27-dən etibarən bir neçə gün ərzində mürəkkəb relyefə malik Murovdağ silsiləsində şiddətli döyüşlər gedib. Ömər aşırımından irəliyə sızmaqla strateji yüksəklikdə yerləşən “Canavar sağ” və “Canavar sol” adlanan postlar qətiyyətli həmlələr nəticəsində ələ keçirilərək düşməndən təmizlənib. Orxan avtomat silahı ilə erməni hərbçilərinə qan uddurub.

Sonra onların hücum istiqaməti dəyişdirilib. Oktyabr ayının əvvəlindən sonunadək Füzuli, Cəbrayıl, Xocavənd və Xocalı rayonlarının ərazilərində gecə-gündüz döyüş tapşırıqları icra olunub. Təcavüzkarın müdafiə mövqeləri darmadağın edilib, xeyli canlı qüvvəsi təlefata uğradılıb, müxtəlif növ texnikası sıradan çıxarılıb, çoxlu sayda silah-sursatı qənimət götürülüb. Ayrı-ayrı yaşayış məntəqələri və yüksəkliklərin işğalına son qoyulub. Xüsusi təyinatlı bu döyüşlər zamanı igidlik göstərib.

2020-ci il oktyabrın 25-də Xocalı rayonunun Çanaqçı kəndi yaxınlığındakı yüksəklik istiqamətində döyüş zamanı Orxan sol qolundan ağır yaralanıb, həmin nahiyəni dələn erməni gülləsi əzələni, damarı və sümüyü ciddi zədələyib. XTQ-nin hərbi qulluqçusu gizir Samir Babayev ona ilk tibbi yardım göstərib. Yaranmış təhlükəli vəziyyətlə əlaqədar yaralını dərhal təxliyə etmək mümkün olmayıb. Nəhayət, bir sutkadan çox vaxt keçdikdən sonra o, digər yaralılarla birgə arxaya çıxarılıb. Hadrutda yerləşən tibb məntəqəsinə, oradan Füzuli rayonundakı xəstəxanaya çatdırılıb. Xəstəxanadan isə Bakıya göndərilib. Paytaxtdakı Mustafa Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində yerləşdirilib. Həkimlər ağır yaralarının fəsadlarını aradan qaldırmaq üçün öz səylərini əsirgəməyiblər. Buna baxmayaraq, sol əlinin barmaqları amputasiya edilib. Sol qolu hərəkətsiz vəziyyətə düşüb. Ümumilikdə döyüşçünün üzərində 11 dəfə cərrahiyyə əməliyyatı aparılıb.

Hərbi-həkim komissiyasının rəyinə əsasən, həm sülh, həm də müharibə dövrlərində hərbi xidmətə yararsız hesab edilərək 2-ci əlillik dərəcəsi verilən çavuş Orxan Babayev 2021-ci ilin sentyabr ayında Daxili Qoşunların sıralarından istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin 24 və 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il, Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları ilə çavuş O.Babayev “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Cəsur döyüşçü” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif edilib.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib.

Müharibə xatirələrini həyatının sonunadək Orxan unutmayacaq, həmin günlər insan yaddaşında silinməz iz qoyur. “Hər an ölümlə göz-gözə dayanırdıq, mərmi və güllə atəşi altında hərəkət etmək, mövqelənmək, düşmənin yaratdığı istehkamlardan ibarət müdafiə səddini yarıb keçmək nə qədər çətin olsa da, ruh yüksəkliyi ilə irəli gedirdik. Silahdaşlarımızın şəhid olması və yaralanması bizi çox sarsıdırdı.

Bakıda xəstəxanada olarkən evdən mənə radio alıb gətirmişdilər, xəbərləri hər gün dinləyirdim. Möhtərəm Prezidentimizin xalqa müraciətində Şuşanın azad olunması xəbərini verməsi hamıda böyük bir coşqu yaratdı. Həmin anda sevincimdən ağladım” - deyən qazi xatirələrini mənimlə bölüşdü.

Qeyd edim ki, qazinin dayısı Xaliq Hüseynov Birinci Qarabağ müharibəsi zamanı, bibisi oğlu Fərəməz Babayev isə atəşkəs dövründə şəhidlik zirvəsinə ucalıblar.

Daşkəsən rayonunun Bayan kəndində yaşayan Orxan 2016-cı ildə Həyat xanımla ailə qurub, Bəhruz və Babək adlı övladları var. Səhhəti ilə əlaqədar işləməyən qazi bu gün də müalicəsini davam etdirir.

Orxanın yazdığı şeirlərdən birində belə misralar var:

Eşidin siz məni, igid oğullar,
Üzünüz həmişə belə ağ olsun.
Qələbə yaraşır Azərbaycana,
Mən qazi olsam da Vətən sağ olsun!

**Yalçın Abbasov**

4_Layout 1 27.08.2026 11:31 Page 1



# HƏRBİ QULLUQÇULARIN SAĞLAMLIQLARININ QORUNMASI MƏQSƏDİLƏ PROFİLAKTİK TƏDBİRLƏR HƏYATA KEÇİRİLİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir. 25032 saylı hərbi hissənin tibb xidməti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları uğurla və vaxtında yerinə yetirir. Tibb məntəqəsinin hərbi qulluqçuları savadları, bacarıqları, nümunəvi xidmətləri ilə hərbçi yoldaşlarına örnək göstərilirlər.



Tibb xidmətinin tibb məntəqəsinin feldşeri kiçik gizir Ramilə Nəhmədova məlumat verdi ki, xidmət gündəlik olaraq öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Hərbi qulluqçu hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Tibb xidmətinin tibb məntəqəsinin sanitar təlimatçı-dezinfektoru baş çavuş Pərvin Gülməliyeva da nümunəvi hərbi qulluqçulardan biridir. Funksional vəzifələrinin icrasına layiqincə yanaşan baş çavuş P.Gülməliyeva tapşırıqları məsuliyyətlə icra edir.

Kiçik gizir R.Nəhmədova hərbi hissədə sanitar-gigiyenik vəziyyətin hər zaman nəzarətdə saxlanıldığını diqqətə çatdırdı: "Şəxsi heyətin sağlamlığının qorunması məqsədilə əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında mütəmadi olaraq dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir. Hərbi qulluqçuların sağlamlıqlarının qorunması diqqət mərkəzindədir".

Gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda ambulator müalicəyə göndərilir.

Bundan əlavə, tibb xidmətinin tibb məntəqəsində xəsarət alanlara, təxirəsalınmaz xəstələrə həkim nəzarəti altında tibbi yardım göstərilir, əczaxanadan alınan dərmanların saxlanılmasına, tibbi avadanlığın düzgün istifadəsinə, onların sterilizasiyasına diqqət yetirilir, xidməti sənədlərin vaxtlı-vaxtında və düzgün icrası həyata keçirilir. Bölmələr tibbi preparatlarla fasiləsiz təmin edilir.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# VERİLƏN TAPŞIRIQLARI VAXTINDA VƏ DƏQİQ YERİNƏ YETİRƏN YARIMQRUP KOMANDİRİ

Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularından biri baş çavuş Ziyad Teymurzadədir. O, 1992-ci il mayın 5-də Abşeron rayonunun Qobu qəsəbəsində anadan olub. Orta təhsilini Qobu qəsəbəsində yerləşən 2 saylı tam orta məktəbdə alıb. 2009-cu ildə orta təhsilini tamamlayıb. 2010-2012-ci illərdə müddətli həqiqi hərbi xidmətini Müdafiə Nazirliyinin hərbi hissələrindən birində keçib.



2012-ci ilin dekabr ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarında xidmətə başlayıb. 17072, 99713 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə komandanlığın etimadını doğruldub. Nizam-intizamı, tapşırıqlara məsuliyyətlə yanaşması ilə seçilib, qısa müddətdə özünü bacarıqlı, nümunəvi hərbi qulluqçu kimi tanıdıb. Xidmətə ciddi münasibətlə yanaşı, eyni zamanda davranışı ilə yoldaşları arasında hörmət qazanıb.

2021-ci ilin dekabr ayından 16073 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunun yarımqrup komandiridir. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Döyüş hazırlığının yüksəldilməsi məqsədilə keçirilən məşğələlərdə fəallıq göstərir.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Rasim Əliyev də hərbi qulluqçunu müsbət xarakterizə etdi, onun daim üzərində çalışdığını, özünə qarşı tələbkar olduğunu bildirdi. Əlavə etdi ki, baş çavuş Z.Teymurzadə hərbi biliklərini artırmağa səy göstərir, bunun üçün əlindən gələni əsirgəmir, komandirlərin tapşırıqlarını vaxtında və keyfiyyətlə yerinə yetirir.

Biz də hərbi qulluqçumuza xidməti fəaliyyətində uğurlar arzu edirik.

**16073 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# ŞƏXSİ HEYƏTİN QİDALANMASI TƏLƏBLƏRƏ ƏSASƏN KEYFİYYƏTLƏ TƏŞKİL OLUNUR

Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi əsas məsələlərdən biri şəxsi heyətin kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi müxtəlif amillərdən asılıdır ki, onlardan ən vacibi sağlam və keyfiyyətli qidalanmadır.



25033 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərinin ərzaq xidmətinin rəisi mayor Ramin Abdurəhimov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətlə hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu mühüm tələblərdəndir. Bununla yanaşı, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər həyata keçirilir.

Mayor R.Abdurəhimov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri rasiona daxil edilir. Kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər də əlavə olunur. Şəxsi heyətin qidalanması həftəlik bölgü cədvəlinə əsasən təşkil edilir. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.



Zabit görülən işlərdə təminat bölüyünün təminat taqımının yeməkxana rəisi baş gizir Elnur Abasovun zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün səyini əsirgəmədiyini diqqətə çatdırdı. Qeyd edək ki, baş gizir E.Abasov 2007-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. 2019-cu ilin sentyabr ayından hazırkı vəzifədədir.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə hazırlanmasında aşpazlardan Şirinxanım Məmmədova, Kəmalə Əliyeva, Səbriyyə Quliyeva, Tabəs Ağayeva və əsgər Cavid Əhmədovun fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Xədicə Hacızadə**

# KOMENDANT BÖLÜYÜNÜN SAYIQ, İNTİZAMLI ƏSGƏRİ

Əsgər Tunar Lətifov 17072 saylı hərbi hissənin komendant bölüyünün intizamlı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularındandır. Bölük komandiri kapitan Qanboy İbrahimov tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu qısa zamanda yoldaşlarına nümunə olmağı bacarıb.



Əsgər T.Lətifov 2008-ci il fevralın 22-də Qobustan rayonunun Ərəbşahverdi kəndində anadan olub. 2014-2025-ci illərdə doğma kəndində yerləşən tam orta məktəbdə təhsil alıb.

2026-cı ilin aprel ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb, may ayında xidmətini davam etdirmək üçün 17072 saylı hərbi hissəyə göndərilib. Atıcı vəzifəsindədir. Özünə qarşı olduqca tələbkar olan əsgərimiz xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər T.Lətifov hər bir gəncin Vətənə olan borcunu layiqincə qaytarmasının, komandirlər tərəfindən qarşıya qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinin vacibliyini vurğuladı.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# AVTOMOBİLLƏRİN VƏ ZİREHLİ TEXNİKALARIN SAZ VƏZİYYƏTDƏ OLMASI VACİB ŞƏRTDİR

17072 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Hərbi hissənin maddi-texniki təminat xidmətlərinin avtomobil və zirehli texnika xidmətinin rəisi kapitan İbrahim Quliyev nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışdı. Bildirdi ki, hər gün sürücü heyəti avtomobillərin və zirehli texnikaların saxlanıldığı parka gəlir. Parkın girişində xidmət rəisi və park növbətçisi tərəfindən şəxsi heyətin sayı yoxlanılır, təhlükəsizlik qaydaları ilə tanışlıqdan sonra verilmiş tapşırıqlara əsasən fəaliyyət başlayır.

Avtomobil xətdə çıxmazdan öncə parkda yerləşən nəzarət-texniki məntəqəsində maşın rəhbərinin, sürücünün sənədlərinin mövcudluğu, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xətdə çıxılması üçün icazə verilir. Parka qayıtdıqdan sonra təyin olunmuş yerdə avtomobil saxlanılır, maşın rəhbəri tərəfindən nəzarət-texniki məntəqəsi rəisinə təqdim edilir.



Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə yay və qış mövsümlərində texniki xidmətlər göstərilir.

Xidmət rəisi nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılması məqsədilə mütəmadi olaraq məşğələlərin keçirildiyini söylədi. Məşğələlərdə gündəlik texniki qulluğun keçirilməsi, avtomobillərin və zirehli texnikaların hissə və mexanizmlərinin iş prinsipləri, düzgün istismarı, idarə olunması, şəxsi heyətin və xüsusi yüklərin daşınması zamanı sürücünün vəzifələri, təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi tədris olunur. Kapitan İ.Quliyev bildirdi ki, yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə hər ay yerli yol polisi əməkdaşları hərbi hissənin şəxsi heyəti ilə məşğələlər keçirir, onları maraqlandıran suallara cavablandırırlar.

Kapitan İ.Quliyev vəzifə borclarının icrasına vicdanla yanaşan, hər zaman öz bilik və bacarıqlarını təkmilləşdirən nümunəvi hərbi qulluqçulardan baş əsgərlər Abdulkərim Məmmədov, İzzət Seyfullayev və əsgər Pərviz Əsədovun adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin FNSS şirkəti İ-ZAHA çoxməqsədli modulyar insansız amfibiya maşınını ilk dəfə "TEKNOFEST Mavi Vatan" texnologiya festivalında təqdim edib

"Poliqon" FNSS-ə istinadən xəbər verir ki, şirkət tərəfindən layihələndirilən və istehsal olunan İ-ZAHA Türkiyə Hərbi Dəniz Qüvvələrinin (HDQ) inventarında olan amfibiya tipli ZAHA zirehli transportyorları ilə birgə fəaliyyət göstərmək üçün hazırlanıb.



Beləliklə, İ-ZAHA insansız amfibiya maşını və ZAHA zirehli transportyoru birlikdə insanlı-insansız komanda (MUM-T) konsepsiyası çərçivəsində tapşırıqları yerinə yetirəcək.

Sahilə desant çıxarılması əməliyyatlarında İ-ZAHA qarşı tərəfin sahil müdafiəsi ilə ilk təması insanlı platformalardan əvvəl quraraq operatorların bütün missiya müddətində təhlükəsiz ərazidə qalmasını təmin edir.

Dənizdən sahilə fasiləsiz hərəkət edə bilən 8 tonluq platforma suda 7 knot (təxminən 13 km/saat), quruda isə 70 km/saat sürətə çata bilir. Döyüş meydanında təxminən 40 dəqiqə ərzində dəyişdirilə bilən faydalı yük modulları sayəsində İ-ZAHA atəş dəstəyindən minatəmizləməyə, elektron müharibədən yaralıların təxliyəsinə qədər 10 fərqli tapşırıq konfiqurasiyasında istifadə edilə bilər.

İ-ZAHA avtomobil yolu, dəmir yolu və dəniz nəqliyyatı ilə daşına bilir. Uzaq məsafələrə sürətli şəkildə çatdırılması lazım olduqda isə ağır nəqliyyat helikopterləri və hərbi nəqliyyat təyyarələrindən istifadə edilə bilər. O, CH-47F "Chinook", Mi-26, C-130 "Hercules", A400M, C-17 "Globemaster", C-5 "Galaxy", An-124 və İl-76 kimi nəqliyyat vasitələri ilə daşına bildiyindən müasir hərbi logistika tələblərinə cavab verir.

## Allah rəhmət eləsin

12318 saylı hərbi hissənin komandanlığı polkovnik Ağacan Zərbəliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan baş leytenant Köşəli Mərdəliyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Şahin Cəfərzadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000